

*“Əgər hansısa bir namərd gülləsi, hansısa bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq!”*
**HEYDƏR ƏLİYEV**

# Xalq məhəbbəti

Xalqımızın ümummilli lideri
Heydər Əliyevə ithaf edirəm

Alınmaz qaladır, xalq məhəbbəti
O qalanı tikən müqəddəsləşir!
Xalqının xilaskar lideri kimi
Tarixə düşərək əbədiləşir!

Sarsılmaz güc oldu Azərbaycana
Xalq-Heydər, Heydər-Xalq milli birliyi!
Dünyanı lərzəyə salan o birlik
Gətirdi ölkəyə müstəqilliyi!

Vətənə məhəbbət, xalqa məhəbbət
Alovun gücünü Səndən almışıq!
O gücdən indi biz İlham alaraq
Gücün varisinə sadiq qalmışıq!

Bu xoşbəxt anları yaşadıqca biz
Görürük nur saçır gələcəyimiz!
Ümumxalq liderin davamçısı tək
Onunla fəxr edir, gülür qəlbimiz!

Dünya tənəzzülə doğru getsə də
Biz yenə inkişaf, güc əzmindəyik!
Bunu həzm etməyən şər qüvvələrin
Dünya güclərinin hədəfindəyik!

Nizamı pozulan bu dünyada biz,
Təhlükəsiz ada sakinləriyik!
Xoşbəxt gələcəyə gedir ölkəmiz!..
Batmayan burulğan gəmisindəyik!

**Həsən Kamiloğlu**
02.12.2015